AZƏRBAYCAN ORDUSU

# Milli Qəhrəman Aqil Məmmədovun anım mərasimi keçirildi



*Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzində şəhid Milli Qəhrəman Aqil Məmmədovun anım mərasimi keçirildi.*

Mərasimdə Müdafiə Nazirliyinin əməkdaşları, xüsusi təyinatlı hərbi təhsil müəssisəsinin kursantları, ictimaiyyət nümayəndələri və şəhidin ailə üzvləri iştirak etdilər.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş oğul və qızlarımızın, şəhid Aqil Məmmədovun xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Mərasim iştirakçılarının nəzərinə çatdırıldı ki, Azərbaycanın Milli Qəhrəmanı Aqil Məmmədov Qubadlı rayonunda dünyaya göz açıb. 1984-cü ildə Qubadlı rayonunda 2 saylı natamam orta məktəbi bitirdikdən sonra təhsilini 126 saylı Xanlıq texniki-peşə məktəbində davam etdirib. Əmək fəaliyyətinə Qubadlı rayon Avtomobil Nəqliyyatı İdarəsində başlayıb. 1987-ci ildə həqiqi hərbi xidmətə çağırılıb. Aqil Məmmədov 1988-ci ildə Orenburq vilayətində xidmətini yarımçıq qoyaraq doğma yurda qayıdır və Qubadlı rayon özünümüdafiə taboruna qoşulur.

1992-ci il avqustun 7-də Laçın rayonunun Susuzdağ yüksəkliyinə hücum edilməli idi. Hər şey kəşfiyyatçılardan asılı idi. Aqil öz dəstəsi ilə tapşırığı müvəffəqiyyətlə yerinə yetirib geri dönərkən, gözlənilmədən mühasirəyə düşür. O, öz dəstəsini bu çətin vəziyyətdən çıxarmaq üçün müxtəlif yollar düşünür. Onlar düşmənin xeyli canlı qüvvəsini məhv edərək, mühasirəni cəsarətlə yarırlar. O, döyüş dostlarına qarşı tərəfin minalandığını bildirir. Amma tale onun bəxtinə gülmür. Bir qədər getdikdən sonra özü minaya düşərək ağır yaralanır. Çoxlu qan itirdiyinə görə Aqil Məmmədovun həyatını xilas etmək mümkün olmur.

Azərbaycan Respublikası Prezidentinin 5 fevral 1993-cü il tarixli Fərmanı ilə Aqil Məmmədova ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Mərasimdə çıxış edən Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi vəzifəsini icra edən mayor İlkin Qayıbov bildirdi ki, Vətən torpaqlarının azadlığı uğrunda canlarını fəda edən, müqəddəs şəhidlik zirvəsinə ucalan qardaş və bacılarımızı yad etmək hər birimizin borcudur. “Onların obrazı hər bir azərbaycanlı üçün müqəddəs, məzarları isə ziyarətgah yerimizdir. Öz qanları ilə torpağı al rəngə boyayan şəhidlərimiz son mənzilə də al rəngli Azərbaycan bayrağına bükülərək, silahdaşlarının çiynində yola salınıblar. Onların keçdiyi döyüş yolunu, göstərdikləri qəhrəmanlıqları gənc nəslə təbliğ etmək çox vacibdir. Azərbaycanın milli atributlarını uca tutmağı, Vətəni sevməyi aşılamaq və xalqımızın dövlətçilik salnaməsini öyrətmək qarşımızda duran başlıca vəzifələrimizdən biridir.”

Sonra tədbir iştirakçılarına Milli Qəhrəman Aqil Məmmədova həsr olunan sənədli film nümayiş etdirildi.



Qubadlı rayon İcra Hakimiyyəti başçısının müavini Allahverdi Haqverdiyev çıxışı zamanı qeyd etdi ki, Qarabağımız uğrunda gedən döyüşlər minlərlə qəhrəman oğullarımızı üzə çıxardı. Müasir tariximizin şanlı səhifələrindən biri də Aprel döyüşləridir. Natiq dedi ki, əsgərlərimizin ayıq-sayıqlığı nəticəsində ermənilərin növbəti təxribatının qarşısı alındı. “Ordumuzun əks həmləsi uzun illərdir ermənilərin öz ordusu və "keçilməz sədd" haqqında yaratdığı mifini darmadağın etdi. Düşmən tapdağı altında olan torpaqlarımızın bir hissəsi azad edildi. Aqil Məmmədov kimi oğullarımız adlarını Vətənimizin şanlı səhifəsinə öz qanları ilə yazdılar. Xalqımız hər zaman ordusu ilə birlikdə olduğunu, ordumuz isə daim döyüşə hazır və Ali Baş Komandanımızın hücum əmrini gözlədiyini nümayiş etdirdi.”



Digər çıxış edənlər ordumuzun düşmənə sarsıdıcı zərbələr endirməsindən, Aqil Məmmədov kimi oğullarımızın döyüşlərdə göstərdikləri şücaətdən danışdılar. Aprel döyüşlərinin müasir tariximizin ən uğurlu hərbi əməliyyatlarından biri olduğunu vurğuladılar. Ölkə rəhbərliyi tərəfindən şəhid ailələrinə göstərilən diqqət və qayğıya minnətdarlıqlarını bildirdilər.

Sonra tədbir bədii hissə ilə davam etdi.

Sonda tədbirin təşkilatçıları xatirə şəkli çəkdirdilər.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu"**